# “Bura məskənidir gözəlliklərin...”



Azərbaycanın təbii gözəllikləri o qədər çoxdur ki, onları saymaqla qurtarmaz. Şimal bölgəsinin “şah əsəri” olan Qubanın da həmçinin.

Şahdağın ətəyində qərar tutmuş Quba Azərbaycanın, Qafqazın gözəl guşələrindən biridir. Bütün fəsillərdə burada yüzlərlə təbiət həvəskarına rast gəlmək mümkündür. İsti aylarda gözəlliyi ilə göz oxşayan meşələri, qışda qara bürünmüş dağ və dərələri Qubaya yolu düşənləri ovsunlayır, onları təkrar-təkrar bu füsunkar diyara qayıtmağa məcbur edir.

Xüsusən son illər dövlət tərəfindən rayonda turizmin inkişafına böyük diqqət və qayğı göstərilir. Quba Olimpiya İdman Kompleksi, SPA mərkəzlərinin inşasını, Xınalıq kəndinə çəkilən yol, qədim xalçaçılıq sənətinin dirçəldilməsi və onlarca digər tədbir məhz bunun nəticəsidir. Şəhərin girəcəyində salınan Heydər Əliyev seyrəngahı yay aylarında insanlarla dolu olur. Qubanın parkları da son dövrdə çox gözəlləşib. Burada müxtəlif ölkələrdən gələn turistlərlə rastlaşmaq mümkündür. Ümumiyyətlə, Qubadakı istirahət mərkəzləri ilin bütün fəsillərində fəaliyyət göstərir. Təsadüfi deyil ki, bu gün turizm sektorunda Quba brendi yaranıb. Çünki Qubanın coğrafi mövqeyi, təbii şəraiti elədir ki, hamının diqqətini cəlb edir. Bu yerlərdə turizmin daha geniş miqyas alması, inkişafı üçün hər şərait var. Əlaqədar təşkilatların əsas vəzifəsi bu səfalı guşələrdə, əsrarəngiz təbiətin qoynunda istirahətin və xidmətin təşkilinin daha müasir tələblər səviyyəsində qurulmasına nail olmaqdan ibarətdir. Turizmin inkişafında regionların xüsusi çəkisinin artması həm də bölgələrdə əhalinin maddi rifah halının yüksəlməsinə, ümumi iqtisadi inkişafa müsbət təsir edir.

Quba təkcə təbii gözəllikləri ilə yox, qədim tarix-mədəniyyət abidələri, sənətkarlıq nümunələri ilə də məşhurdur. İnformasiya daşıyıcısı olan turist üçün bu, çox mühüm amildir. Turist tarixi abidələr, qədim el adətləri, mətbəx barədə zəngin təəssüratla qayıdırsa, növbəti istirahət planlarında həmin məkanı seçirsə, istər-istəməz sonrakı ildə daha bir neçə nəfərin bu məkana səfərinin təşkilatçısına çevrilir.

Qubada yol infrastrukturu da son illər çox inkişaf edib. Mərkəzi və kəndlərarası yollar təmir edilmiş, körpülər salınmışdır. Bu yerdə Xınalıq istiqamətinə gedən yoldan söhbət açmaq yerinə düşər. Bu kəndə ilk avtomobil yolu 1969-cu ildə çəkilib. Lakin qayalar arasından çəkilən yol tez-tez hündürlükdən tökülən daş parçaları nəticəsində gediş-gəlişi çətinləşdirirdi. Qrız, Cek və Xınalıq kəndlərinə aparan bu yol ilin əksər vaxtlarında pis vəziyyətdə olurdu. Havalar sərt keçəndə isə bu istiqamətdə gediş-gəliş tamam kəsilirdi. Ölkənin yol infrastrukturundakı yenidənqurma işləri Xınalıqdan da yan keçmədi. 2006-cı ildə Prezident İlham Əliyevin göstərişi ilə Xınalığa asfalt yol çəkilərək istismara verildi. İndi ilin bütün fəsillərində 57 kilometrlik bu yol gedişli-gəlişli olur.



...Qəçrəş yolunun üstündəki meşələrdə adam sanki nağıllar aləminə düşür. Yolun hər iki tərəfindəki nəhəng daş parçalarının hərəsinin öz rəngi var - qızılı, qara, ağ, yaşıl... Onların arasından çalın-çarpaz axan dağ çayları adamı riqqətə gətirir. Qəribədir ki, burada çaylar sağa-sola istiqamətlənsə də, sonda hamısı Qudyalçaya tökülür. Necə deyərlər, bura gəlməyə, dağ turizminin möcüzəli, həyəcanlı anlarını yaşamağa dəyər.

***Akif ƏLİYEV,***
***Ağəəli MƏMMƏDOV (foto),***
***“Azərbaycan”***